

ABŞ Kubada qiyam qaldırmaq üçün hazırlandığı iddia edilən və "Kuba Tvitteri" olaraq adlandırılan qısa mesaj xidmətinin arxasında Amerika təşkilatının olduğunu qəbul edib.

"Axar.az" xəbər verir ki, Ağ Ev Kubada kommunist hökumətini devirmək üçün bu ölkədə Tvitter sosial şəbəkəsinə bənzər şəbəkə yaratmaq barədə gizli proqram hazırlayırmış. Bu proqram ABŞ konqresi tərəfindən də təsdiq edilmişdi, ancaq bu gizli proqramın nəyi hədəflədiyi və necə icra edildiyi barədə suallara aydınlıq gətirilməyib.

Əldə edilən məlumatlara görə isə, ZunZuneo adlı şəbəkə istifadəyə verildiyi an 40 min istifadəçi cəlb edilmişdi.

Xatırladaq ki, ABŞ hökuməti ZunZundeo adlı layihənin 2012-ci ilin sentyabr ayında dayandırlıdığını etiraf etmişdi.

Kubanın Xarici işlər naziri Josefino Vidal məsələylə bağlı açıqlamasında, ABŞ-ın Kubada böhran yaratmağa çalışdığını və bunun üçün hər il büdcədən milyonlarla dollar ayırdığını qeyd edib.

Vidal həmçinin bildirib ki, ABŞ beynəlxalq hüquqi qaydaları kəskin şəkildə pozur və Kuba hökuməti, xalqı ABŞ-ın qanunsuz addımlarını rədd edir.